*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 dekabr 2016-cı il № 101 (2116) Qiyməti 25 qəpik


# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi - Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 dekabr 2016-cı il.



Uğurlar davamlı olacaq

3-4-cü səhifədə



Zəfər sənindir, Azərbaycan əsgəri!

4-cü səhifədə



Nümunəvi xidmət - ordunun gücü

5-ci səhifədə



Səngər dostluğu daha möhkəm olur

7-ci səhifədə

# Azərbaycanın Müdafiə naziri Bəhreyn Müdafiə Qüvvələrinin Baş Komandanı ilə görüşüb

*Dekabrın 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş Komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.*




Qonaq fəxri qarovulun önündən keçdikdən sonra protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə tərəflər regional hərbi-siyasi vəziyyəti, hərbi əməkdaşlığın perspektivlərini, eləcə də müdafiə sahəsində digər məsələləri ətraflı müzakirə ediblər.

# Azərbaycan Respublikasının Müdafiə naziri Rusiya Federasiyasının Müdafiə nazirinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasında "Tu-154" təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyquya başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Rusiya Federasiyasının Müdafiə Nazirliyinə məxsus "Tu-154" təyyarəsinin qəzaya uğraması nəticəsində ekipajın, hərbçilərin, Aleksandrov adına mahnı və rəqs ansamblının üzvləri və digər mülki şəxslərin faciəvi şəkildə həlak olmaları xəbəri məni dərindən sarsıtdı.

Baş vermiş hadisə ilə əlaqədar həlak olanların ailələrinə, doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı verir və sizinlə birlikdə onların dərdlərinə şərik oluram".

# Bir qrup hərbi qulluqçuya növbəti "polkovnik" hərbi rütbəsi təqdim olunub

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, bir qrup zabitə növbəti "polkovnik" hərbi rütbəsi verilib.*



Hərbi qulluqçuları qəbul edən Müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrdə görülən irimiqyaslı quruculuq işlərindən, son vaxtlar dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən danışıb.

General-polkovnik Zakir Həsənov vurğulayıb ki, dövlətin orduya göstərdiyi bu yüksək diqqətə cavab olaraq hər bir hərbi qulluqçu üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməli, xalqın və dövlətin etimadını doğrultmaq üçün bütün vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlməlidir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**27 dekabr 2016-cı il.**

Ermeni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 46 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Voskevan, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Şuraabad, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Ərazi bütövlüyümüz təmin olunacaq

*20 ildən çoxdur ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası ilə başladığı işğalçılıq siyasəti - elan edilməmiş müharibə davam edir. Atəşkəs elan edilsə də, müharibə hələ bitməyib. Bu illər ərzində ümummilli lider Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyev tərəfindən münaqişənin ədalətli həlli istiqamətində gərgin işlər aparılır və aparılmaqda davam edir. Ölkəmizin başçısı bütün beynəlxalq tədbirlərdə, bu və ya digər dövlətin nümayəndə heyətini qəbul edəndə bu münaqişə ilə bağlı öz fikirlərini deyir, tələblərini bildirir.*

Beynəlxalq qurumlar da bu istiqamətdə fəaliyyətlər həyata keçirir, səylər göstərir, vasitəçilik missiyasını icra etməyə çalışırlar. Danılması mümkün olmayan bir fakt odur ki, beynəlxalq təşkilatların fəaliyyəti hələlik nəticəsizdir. Bunun əsas səbəbkarı isə Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqlar prosesini pozmasıdır.

Bəzi qurumlar və adamlar münaqişəyə nə qədər ədalətsiz yanaşsalar da, nə qədər ikili standartlar mövcud olsa da, Azərbaycan Prezidenti, ölkəmizin müvafiq dövlət qurumları, qeyri-hökumət təşkilatları Vətənimizin taleyüklü məsələsi - ərazi bütövlüyümüzün bərpası istiqamətində səyləri davam etdirirlər. Ölkə Prezidenti dəfələrlə bəyan etmişdir ki, bir qarış torpağımızı da düşmənə güzəştə getməyəcəyik, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu ola bilməz. Aprel döyüşləri buna əyani sübutdur. Torpaq məsələsində düşmənə güzəşt olmayıb, olmayacaq da. Münaqişə öz həllini yalnız beynəlxalq hüquq normalarına uyğun, BMT tərəfindən tanınmış sərhədlər çərçivəsində və Azərbaycanın ərazi bütövlüyü təmin edilməklə tapmalıdır.

Aprel döyüşlərindən sonra ermənilərin hadisənin mahiyyətini, nəticələrini təhrif etməsi məğlubiyyətə uğrayan ermənilərin dünyaya haray-həşir salmaları nəticəsində yenidən beynəlxalq qurumların məsələnin sülh danışıqları ilə həll edilməsinin vacibliyi barədə müxtəlif bəyanatlar verməsinə səbəb olub. Nədənsə, bəziləri məhz Ermənistanın işğalçı olduğunu, yumşaq desək, qeyd etməyi unudurlar.

Eyni zamanda, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun son illər ən yeni silahlarla təchiz edilməsi istiqamətində görülən işlər ermənilər olduqca ciddi narahat edir. Təcavüzə məruz qalan, əraziləri işğalda olan bir dövlətin özünün və ordusunun gücləndirilməsi, ilk növbədə, bu xalqın və dövlətin borcudur, vəzifəsidir, qanuni haqqıdır. Ölkə Prezidentinin də qeyd etdiyi kimi, bizim ordumuzu gücləndirməyimiz, müasir silahlarla təmin etməyimiz təbii haldır, əgər bu münaqişə ədalətli həll olunsaydı, fikrimcə, çoxlu yeni silah və sursatlar almağa da lüzum qalmazdı.

Son vaxtlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirə obyektinə çevrilən və diqqəti çəkən məqamlardan biri də Prezident İlham Əliyevin danışıqlar zamanı dediyi, Dağlıq Qarabağa Azərbaycanın tərkibində beynəlxalq qanunlara müvafiq ən yüksək status verilməsi fikridir. Aprel döyüşlərindən sonra bütün beynəlxalq təşkilatların münaqişənin sülh yolu və danışıqlar vasitəsi ilə həll olunmasını bəyan etməsi bəzi ermənipərəst qüvvələrin və erməni lobbisinin təsiri altına düşən siyasət adamlarının açıqlamaları da diqqətçəkəndir. Maraqlı odur ki, iqtisadi gücünə, resurslarına, hərbi büdcəsinə, silahlanmaya görə, Ermənistanın imkanlarının müqayisəyəgəlməz dərəcədə Azərbaycandan az olduğunu görən, bizimlə rəqabətdə şanssızlıqlarını anlayan, ən əsas döyüşdə məğlub olan ermənilər yenidən virtual "hücuma" başlayıblar. Belə ki, erməni politoloqlar, kriminal hərbi siyasi rejimin əlaltıları, ermənipərəstlər, erməni lobbisinin təsiri altına düşən siyasətçilər və ictimai xadimlər Qarabağ münaqişəsinin hərbi yolla həllinin mümkünsüzlüyü barədə bəyanatlar yayır, açıqlamalar verirlər. Bəziləri heç vaxt Qarabağın Azərbaycanın tərkibində olmayacağı barədə fikirlər səsləndirməkdən, fərziyyələr yürütməkdən də çəkinmirlər. Azərbaycan Ordusunun apreldə həyata keçirdiyi əks-hücum əməliyyatları ermənilərin və ermənipərəstlərin bu fikirlərinin tam əksini, yəni Azərbaycan Ordusunun buna döyüşərək, vuruşaraq nail olacağının mümkünlüyünü sübut etdi.

Dediklərimizin çoxu rəsmi qurumların üzərinə düşən işlərdir. Ərazi bütövlüyümüz bərpa olunacaq. Sülh danışıqları baş tutmasa, Azərbaycanın ərazi bütövlüyü döyüşlə təmin olunacaq!..

**İsa İSMAYILOV, hərbi jurnalist**

# Uğurlar davamlı olacaq

***Bütövlükdə xalqımızın və hər bir azərbaycanlının həyatında özünəməxsus iz qoymuş 2016-cı il də bir neçə gündən sonra tarixə qovuşacaq və 2017-ci il ömrümüzə qədəm qoyacaq. Başa çatmaqda olan 2016-cı il hansı məqamları ilə yadda qalacaq? Bir fakt yaxşı bəllidir ki, 2016-cı il tarixə Silahlı Qüvvələrimizin çoxşaxəli fəaliyyətində yetərincə məhsuldar müddət kimi düşəcək.***



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, ordumuzun bölmələri həm düşmənlə təmas şəraitində Azərbaycan torpaqlarının keşiyində ayıq-sayıq dayanıb, həm də gündəlik döyüş məşğələlərində hazırlığını artırıb. İl ərzində keçirilmiş müxtəlif səviyyəli təlimlərdə Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinə məxsus bölmələr nəyə qadir olduqlarını təlimlərdə təsdiqlədilər.

Ermənistan ordusunun bölmələri ötən il qoşunların təmas xəttində dəfələrlə döyüşçülərimizi təxribata çəkmiş, mövqelərimizə hücumlar təşkil etmişlər. Belə təxribatların qarşısı Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qətiyyətlə alınıb.



Aprelin ilk günlərində təmas xəttində baş vermiş hadisələr həm ölkəmizdə, həm işğalçı Ermənistanda, həm də dünyada geniş rezonans doğurdu. Düşmən də daxil olmaqla dünya gördü ki, Azərbaycan xalqı və onun rəhbərliyi əzəli torpaqlarımızın işğalı ilə barışmayacaq və sülh yolu ilə azad edilməsə, Azərbaycan Ordusu torpaqlarımızı düşməndən təmizləməyə qadir və hazırdır.

Aprelin ilk günlərində vəziyyət kəskinləşdi. Etiraf etmək lazımdır ki, cəbhədə atəşkəs imzalandığı 24 il ərzində atışmalar baş versə də, gərginlik bu səviyyəyə çatmamışdı. Həmin günlərdə ordumuzun bölmələri göstərdi ki, Azərbaycanın qüdrətli Silahlı Qüvvələri var və işğal edilmiş ərazilərimizi silah gücünə Ermənistanın zinvorlarından təmizləməyə qadirdir. Ordumuzun bölmələri aprelin 2-də düşmənin təxribatçı əməllərinə son qoymaq, cəbhəyanı kənd və qəsəbələrimizi təhlükə altında saxlayan yüksəklikləri azad etmək üçün əks-hücuma keçdi, qısa vaxt kəsiyində düşməni illərdir möhkəmləndirdiyi mövqelərdən süpürüb atdı, döyüş tapşırığını tamamilə yerinə yetirdi.

Noyabr ayında ön xətdə olarkən aprel döyüşlərinə toxunan Ali Baş Komandan bildirmişdi: "Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir".

Təəssüflər olsun ki, aprel hadisələri düşmənə ibrət dərsi olmadı və erməni zinvorları yenə mövqelərimizi atəşə tutmaqda davam edirlər. Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini pozur. Azərbaycan Silahlı Qüvvələrinin cəsur döyüşçülərinin sərrast atəşlərindən sonra düşmən susmağa məcbur olur.

Ordumuz bu günlərdə yenə öz gücünü nümayiş etdirir. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, noyabrın 26-sında cəbhənin Füzuli rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatı vaxtında aşkar olunaraq atəşlə məhv edilib. Ümumiyyətlə, il ərzində dəfələrlə, o cümlədən noyabr və dekabr aylarında düşmənin kəşfiyyat uçuşları həyata keçirən dörd dronu vurularaq salınıb. Məsələn, dekabrın 12-sində cəbhənin Füzuli rayonu və Talış kəndi istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus iki pilotsuz uçuş aparatı bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

2016-cı il Silahlı Qüvvələrimizdə döyüş qabiliyyətinin yüksəldilməsi baxımından da uğurlu oldu. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun imzaladığı döyüş hazırlığı planına əsasən, döyüş hazırlığı prosesinin məntiqi yekunu kimi ayrı-ayrı qoşun növlərində irimiqyaslı təlimlər keçirildi. Noyabrda keçirilmiş irimiqyaslı təlimlərə bütün qoşun növləri - Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının bölmələri qatılmışdı. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun mexanikləşdirilmiş, tank və artilleriya bölmələri də irimiqyaslı təlimlərdə döyüş qabiliyyətini göstərdi.

Hərbi manevrlərin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhə bölgəsinə gedərək ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış oldu, düşmənin qarşıdakı mövqelərini izləmişdi. Ali Baş Komandan həmçinin təmas xəttində hərbçilərlə görüşmüş, onlara bir sıra dəyərli tövsiyələr vermişdi. Azərbaycan Prezidenti İlham Əliyev eyni zamanda döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etmişdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən irimiqyaslı təlimlərə yetərincə böyük qüvvələr cəlb edilmişdi. 60 min nəfərədək şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək qurğusu təlim tapşırıqlarının yerinə yetirilməsində iştirak edirdi. Ən müasir döyüş vasitələrilə təmin edilmiş Hərbi Hava Qüvvələrinin və digər qoşun növlərinin birgə fəaliyyətinin, qarşılıqlı əlaqəsinin planlaşdırılması və təşkili, eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün müasir silah sistemlərinin tətbiqi manevrlər zamanı qarşıya qoyulmuş başlıca vəzifələr idi. Təlimlərdə qoşunların qarşılıqlı, əlaqəli fəaliyyəti, o cümlədən döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi üzrə tapşırıqlar icra olundu. Ayrı-ayrı qoşun növlərinin bölmələri təlimlərdə göstərdilər ki, yüksək döyüş vərdişlərinə yiyələniblər, döyüş meydanlarında bu vərdişləri tətbiq etməyə qadirdirlər.



Bir neçə gün öncə Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının döyüşə hazırlığı qəfil yoxlanılıb. Silahlanmada olan "İldırım" zenit-raket komplekslərinin də hazırlıq vəziyyətinə gətirilməsi və döyüş atışları icra edilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən döyüş hazırlığı təlimlərində iştirak edən şəxsi heyətin praktiki vərdişləri və atışlarının nəticələri yüksək qiymətləndirilib.

İl ərzində Silahlı Qüvvələrimizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi baxımından çoxsaylı tədbirlər həyata keçirilib. Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO və ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində həyata keçirilən proqram, seminar və treninqlərdə peşəkarlıqlarını daha da artırıblar.

Azərbaycan Ordusunun sülhməramlı bölüyü Əfqanıstanda beynəlxalq koalisiya qüvvələrinin tərkibində əmin-amanlıq missiyasını uğurla davam etdirməkdədir.

Bu yaxınlarda ölkəmizdə səfərdə olarkən ABŞ-ın Nəqliyyat komandanı Müdafiə naziri ilə görüşərkən sülhməramlı bölüyümüzün Əfqanıstanda fəaliyyətini yüksək qiymətləndirib və Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

2017-ci ildə də Silahlı Qüvvələrimizdə beynəlxalq ikitərəfli və çoxtərəfli əməkdaşlığa böyük önəm veriləcək. Müdafiə Nazirliyinin qardaş Türkiyə Silahlı Qüvvələri ilə əlaqələri daha sıx xarakter daşıyır. Azərbaycanda və Türkiyədə iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAZ Qartalı" və "TurAZ Şahini" birgə təlimləri keçirilib. Bu təlimlərdə şahinlərimiz yüksək hazırlıq nümayiş etdiriblər. Təlimlər həm döyüş hazırlığı, həm də Hərbi Hava Qüvvələrimizin müasir dünya standartlarıyla tanışlığı baxımından çox önəmli, səmərəli və yaddaqalan olub.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Uğurlar davamlı olacaq

(Əvvəli 3-cü səhifədə)

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, bu günlərdə Ankara şəhərində Azərbaycan-Türkiyə 9-cu yüksək səviyyəli hərbi dialoq iclası keçirilib. Tədbirdə 2017-ci ildə həyata keçiriləcək birgə tədbirlərin razılaşdırılması, hərbi əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, regionda təhlükəsizlik, o cümlədən hər iki dövlətin Silahlı Qüvvələri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Başa çatmaqda olan ildə ölkə rəhbərliyinin qayğısı ilə hərbi hissələrimizdə bir sıra önəmli layihələr həyata keçirilib, şəxsi heyətin sosial-məişət şəraitinin yüksəldilməsi məqsədilə vacib tədbirlər görülüb. Ötən müddət ərzində cəbhə bölgəsində ən müasir şəraitə malik neçə-neçə hərbi kompleks, o cümlədən əsgər yataqxana və yeməkxanası, döyüş texnikası saxlancları, qazanxana-camaşırxana və digər obyektlər şəxsi heyətin istifadəsinə verilib.



Dekabrın 23-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, yeni tikilən hərbi kompleksin açılışında iştirak edib. Şəxsi heyət qarşısında çıxış edən nazir Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq əldə edilən uğurlardan danışıb, döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

İl ərzində döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi ilə bağlı Silahlı Qüvvələrdə həyata keçirilən kompleks tədbirlərə yekun vurmaq üçün bütün rəhbər heyətin iştirakı ilə üçgünlük toplantı və geniş kollegiya iclası keçirilib. Mətbuat xidmətinin məlumatına görə, tədbirdə ordu quruculuğu sahəsində görülən işlər, perspektiv məsələlər müzakirə edilib.

İclasda geniş məruzə ilə çıxış edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiymət, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edərək Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən aprel döyüşlərində əldə edilən uğurların dövlətimizin, ordumuzun qüdrətinin, xalqın həmrəyliyinin, vətənpərvərliyinin nəticəsi olduğunu vurğulayıb.

Nazir hesabat dövründə görülən tədbirlərin təhlilini apararaq davam edən islahatlar, döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı barədə fikirlərini bildirib,



qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2017-ci tədris ilində Silahlı Qüvvələr qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsi məqsədilə komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub. Eyni zamanda, Müdafiə nazirinin əmrilə döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçular müxtəlif medallarla təltif edilib, təşəkkür, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Xalqımız 2017-ci ildən çox şey gözləyir. Dövlətimizin daha da tərəqqi etməsi, xalqımızın rifah halının yaxşılaşması, şəhər və kəndlərimizin abadlaşması hər birimizin arzusudur. Ən böyük istəyimiz isə Silahlı Qüvvələrimizin daha da qüdrətlənməsi və onun fəaliyyətinə bilavasitə aid olan Vətənimizin ayrılmaz parçası kimi Dağlıq Qarabağın işğaldan azad edilməsidir.

Ölkə rəhbərliyinin tələblərinə uyğun olaraq döyüş hazırlığının daha da artırılması Silahlı Qüvvələrin qarşısında duran əsas məqsəddir. Bütün qoşun növlərinə məxsus hərbi hissə və birləşmələrdə hərbi intizam daha da möhkəmləndiriləcək, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı artacaq, hərbi kollektivlərdə döyüş ruhu yüksələcək Azərbaycan Ordusu dövlət rəhbərliyi tərəfindən irəli sürülən vəzifə və tapşırıqları yerinə yetirəcək.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Zəfər sənindir, Azərbaycan əsgəri!



Səhərdir. Döyüş mövqelərinə hələ xeyli yol getməliyik. Bu yerlər mənə doğmadır, əzizdir. Ona görə ki, Vətənimin bir parçasıdır, bədnam ermənilərə qarşı burada mən də döyüşmüşəm. Hərbi xidmətimin on üç ili bu yerlərdə keçib, hər cığırı, hər izi mənə yaxşı tanışdı. Uzaqdan dağın ətəyini şırım kimi yaran iki qoşa xətti görüncə əhvalım korlanır. Mövqelərimizin qarşısı boyunca keçən düşmən səngərləridi. Zabit yoldaşım Elşən Əliquliyev deyir ki, məlum aprel döyüşlərindən sonra ermənilər müdafiə istehkamlarını gücləndiriblər. "Azərbaycan Ordusu öz torpaqlarını düşməndən azad etmək üçün hücuma keçəndə, əlbəttə, bunların heç bir xeyri olmayacaq. Düşmən bununla güclü olduğunu zənn edir. Bundan da qat-qat artıq istehkamları yarıb strateji məntəqələri azad etmişik və edəcəyik. Bəlkə də düşmən bununla bizə psixoloji təsir göstərmək istəyir. Düşmən yanılır. Azərbaycan əsgəri işğalda olan torpaqlarımızı azad etmək üçün yüksək əhval-ruhiyyədədir və hər an Ali Baş Komandanın əmrini gözləyir.

...Avtomobil çınqıllı yoldan ayrılıb sola döndü. Nahamar əyri yolla dərələri keçib, düşmənlə təmas xəttində olan bölmənin dayaq məntəqəsinə çatdıq. Baş leytenant Röyal Zəkiyev komandiri olduğu bölmənin müdafiəsi haqda ətraflı məlumat verdi. Döyüş növbəsində olan əsgərlərin istirahət etdikləri qazmaya keçdik. Hava yağmurlu olmasa da, göyün üzünü duman örtüb, yerin donu hələ açılmayıb. Qazmaya keçirəm. Bura həm işıqlıdı, həm də gözoxşayan səliqə-sahman var, istilik çöldəki soyuğu hiss etdirmir. Burada döyüşçülər asudə vaxtlarını mənalı keçirmək üçün mətbuat, hərbi nizamnamələr, bədii kitablarla maraqlanır, həmçinin stolüstü idman oyunları ilə məşğul olurlar. Əsgərlər yaradılan şəraitdən razıdırlar. Onların gözündən cəsarət, igidlik yağır. Bu cəngavərlər həm də hərb tariximizə aprel zəfəri kimi yazılan döyüşlərin fəal iştirakçılarıdı. Bölmənin gənc zabiti leytenant Mətləb Səlimov həmin döyüşlərdə yaralansa da, bunu kimsəyə hiss etdirməməyə çalışıb və döyüşməkdə davam edib. Ancaq bir az keçəndən sonra qolundan süzülən qan silahdaşlarının gözündən yayınmayıb. Yarası ağır olmadığı üçün ilk tibbi yardım göstəriləndən sonra döyüşməyə davam edib və komandiri olduğu bölməni məharətlə idarə edib.

Həmsöhbət olduğum əsgər Hafiz Kamalov Kəlbəcər rayonundandır. Doğma el-obadan qaçqın düşəndə Bərdə rayonunda məskunlaşıblar. Müddətli həqiqi hərbi xidmətini başa vurub evə qayıdandan bir-iki ay sonra hazırda xidmət etdiyi hərbi hissəyə müraciət edib. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi müvafiq kurs keçəndən sonra ordu sıralarında xidmətə başlayıb.

Əsgər Elmar Hüseynova yaxınlaşıram. Elmar bu il yazın əvvəllərində cəbhədə baş verən gərgin döyüşlərin iştirakçısıdı. O, həmin döyüşləri belə xatırlayır:

- Martın ikinci yarısından sonra elə gün yox idi ki, ermənilər postlarımızı bir neçə dəfə atəşə tutmasınlar. Hətta, artilleriya silahlarından istifadə edirdilər. Aprelin əvvəllərində cəbhədə qanlı döyüşlər baş verdi. Döyüşlər əsasən sağsol cinahımızda gedirdi. Hər an düşmənin hücum edəcəyini gözləyirdik. Ermənilər tez-tez postlarımızı toplardan atəşə tuturdular. Bir gün səhər tezdən düşmənin piyada dəstələri mövqeyimizə yaxınlaşmaq istədi. Biz bunu vaxtında aşkar etdik və yağıları neytral zonada məhv edib irəliləməsinə imkan vermədik. Həmin döyüşdə leytenant Mətləb Səlimov yaralandı.

Əsgərlər müdafiə mövqeyində qətiyyətlə dayanıblar. Onlar döyüşdə hünər, rəşadət göstərib düşmənin irəliləməsinə macal verməyiblər. Hazırda müdafiədə dayanan pulemyotçu Tərlan Mikayılov, qumbaraatan Elnur Əhmədov, atıcılardan Elşən Eyvazov, Qurban Şükürov, Səbuhi Quliyev, Əli Şumalov və başqaları sələflərinin yolunu şərəflə davam etdirirlər.

Əsgərlərlə söhbətdən Vətənə sonsuz sevgi ilə öyünən ürək sahibləri olduğunu bir daha hiss etdim. Belə mərd, qoçaq oğulları olan Vətənin torpağı yağı tapdağı altında çox qala bilməz. Əlbəttə, Azərbaycan əsgəri tezliklə bu işğala son qoyacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Sülhməramlılarımız

# Nümunəvi xidmət - ordunun gücü



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrilib. Ordumuz hazırda qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən gəlmək qabiliyyətindədir. Azərbaycan Ordusunun əsas məqsədi torpaqlarımızı işğaldan azad etməkdir. Bununla yanaşı, beynəlxalq təşkilatlarla münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Antiterror koalisiyasının üzvü olan Azərbaycanın hərbi bölmələri NATO qüvvələri tərkibində keçirilən sülhyaratma missiyasında yaxından iştirak edir.*



"N" hərbi hissəsində olduğumuz zaman Əfqanıstanda təhlükəsizliyin təmin edilməsinə öz töhfəsini vermiş yüzlərlə Vətən oğullarından biri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vəlixan Kazımovla həmsöhbət oluruq. Hacıqabul rayonunda anadan olan hərbçi əsgəri xidmətdən tərxis olunduqdan bir il sonra könüllü olaraq yenidən taleyini hərbə bağlayıb. Bu dəfə NATO-nun Əməliyyat İmkanları Konsepsiyası proqramı əsasında Almaniyada və Bolqarıstanda "Özünüqiymətləndirmə" təlimlərində uğurla iştirak edib. Həmçinin, Əfqanıstan İslam Respublikasında sülhməramlı missiyanın yerinə yetirilməsinə də öz töhfəsini verib. Hazırda avtomobil taborunun maddi-texniki təminat taqımında manqa komandiridir. Həmsöhbətimlə iş başında - avtomobillərə texniki qulluq göstərən, təmir işi aparan zaman görüşürük.

- Bir çox ölkələr arasında sülhməramlı qüvvələrimizin şəxsi heyəti hər zaman sayılıb-seçilib, - deyə V.Kazımov söhbətə başlayır. - Bu illər ərzində bir çox dövlət başçıları sülhməramlı əməliyyatlara verdiyimiz töhfələrə görə dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Bildiyiniz kimi, Azərbaycan Silahlı Qüvvələrinin 90 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir. Bölüyün əsas funksiyası onun üçün ayrılan düşərgəni qorumaqdır. Bölüyümüz türk taborunun tərkibində fəaliyyət göstərir. İlkin olaraq deyə bilərəm ki, düşərgədə çalışan işçilərin nəzarət-buraxılış məntəqəsində giriş-çıxışına bizim bölük nəzarət edir. Maşınlar maşın skaynerindən keçir, yəni avtomobillərin alt hissəsi güzgü ilə yoxlanılır. Sonra içəri keçən şəxslər skayner edilir. Bir sözlə, burada təhlükəsizlik tam təmin olunur.

Həmsöhbətim, həmin düşərgənin maketinin buradakı hərbi şəhərçikdə salındığını bildirir. - Maketin yaradılmasının əsas məqsədi sülhyaratma missiyasını yerinə yetirmək üçün seçilənlərin əvvəlcədən təlim keçməsinə nail olmaqdır, - deyə Kazımov sözünə davam edir. - Hazırlıqlı şəxsi heyət "Qətiyyətli Dəstək" əməliyyatı çərçivəsində sülhün və əmin-amanlığın bərpası üçün Əfqanıstana göndərilir. Şəxsi heyətin seçilməsində könüllülük prinsipi qorunur. Getməmişdən əvvəl hərbi hissə komandiri hər birimizlə ayrı-ayrılıqda görüşür. Ondan sonra həkim komissiyasından və xüsusi yoxlamadan keçirik. Sülhyaratma missiyasında yalnız yüksək hazırlıqlı şəxslər iştirak edə bilər.

Hərbi hissədə söhbətləşdiyim hər kəs Vəlixan Kazımovun nizam-intizamlı olduğunu, xidməti fəaliyyətini daim düzgün yerinə yetirdiyini, əsgərlərlə qarşılıqlı münasibətinin müsbət olduğunu bildirir. Qeyd edirlər ki, o, əldə etdiyi nailiyyətləri, qazandığı təcrübəni tabeliyində olan əsgərlərə də həvəslə aşılayır. Hamı onu nümunəvi hərbi qulluqçu kimi xarakterizə edir. İnanırıq ki, Kazımov hər zaman yoldaşlarına nümunə göstəriləcək hərbi qulluqçulardan olacaq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Təcrübəli texnik

*Düşmənlə təmas xəttində yerləşən hərbi hissələrin birindəyik. Hərbi hissənin şəxsi heyəti müharibənin lap əvvəlindən Vətən torpaqlarının keşiyindədir. Atəşkəsdən bəri yenə də torpaqlarımızın müdafiəsində əzmlə dayanıb. Uzun zaman kəsiyində zabit kadrları, əsgər nəsilləri bir-birini əvəz etsə də, hərbi hissənin amalı, məqsədi dəyişməz qalıb: torpaqlarımızı erməni işğalçılarından azad etmək!*



Hər sahədə olduğu kimi, ordumuzun sıralarında da nəsillərin təcrübəsinə güvənməklə gənclərin müasirliyə, yeni-yeni axtarışlara meyil etməsi, təbii ki, qəbulediləndir, gərəklidir. Bu gün Silahlı Qüvvələrimizdə xidmət edən gənclər yaşlı nəslin köməyini, qayğısını daim hiss edirlər. Hərbi hissədə gördüklərim də fikirlərimi tam təsdiqləyir.

...Ağır mexanikləşdirilmiş körpü maşınının mühərrikində kiçik nasazlıq yaranmışdı. Sürücü-mexanik çavuş Azad Rəcəbov və döyüş maşınının komandiri gizir Yasin Ağayev nasazlığın hansı səbəbdən yaranmasını aşkar etməyə çalışırdılar.

Vəziyyəti görən baş texnik baş gizir Elnur Həsrətov onlara yaxınlaşıb texnikanı diqqətlə nəzərdən keçirir. Nasazlığı yarada bilən hissələri bir-bir yoxlayır. Mühərrikin hava süzgəclərini açıb baxmağı da sürücü-mexanikə məsləhət görür...

Mühərrik işə düşür... Baş gizirin köməyilə maşının nasazlığı qısa vaxtda aradan qaldırılır. Gənc silahdaşlarının onun məsləhətlərini necə diqqətlə dinlədiklərinin şahidi oluram. Artıq hər ikisi bu cür nasazlıqların hansı səbəbdən yarandığını, yəqin ki, həmişəlik yaddaşlarına yazır.

Beləcə illərdir ki, baş gizir Elnur Həsrətov ordu sıralarına yeni gələn hərbi qulluqçulara texniki peşələrin sirlərinə dərindən yiyələnməkdə əlindən gələn köməkliyi əsirgəmir. Onu təcrübəli texnik kimi hərbi hissədə tanımayan yoxdur. Əslən Qəbələ rayonunun Müsgüllü kəndindən olan gizir xeyli vaxtdır ki, ordumuzun ön xətdə yerləşən bölmələrində xidmət edir. Vaxtilə özüyeriyən artilleriya bölməsinin baş sürücü-mexaniki vəzifəsində əsgər kimi xidmət etmiş E.Həsrətov gizirlik kursunu bitirərək yenidən Silahlı Qüvvələrimizin sıralarına qayıdıb.

Gizir Yasin Ağayev və çavuş Azad Rəcəbov da söhbətlərində baş texnikin təcrübəsindən daim yararlandıqlarını və çətinliyə düşəndə onun dəyərli məsləhətlərinə ehtiyac duyduqlarını dedilər. Bildirdilər ki, təcrübəli baş gizir bəzən onların hər biriylə ayrı-ayrılıqda məşğul olmağa da vaxt tapır. Çalışır ki, uzun illər ərzində qazandığı təcrübəni gənclərə yetərincə aşılasın.

Çalışqan, işinin peşəkarı, nizam-intizamli və məsuliyyətli olan baş gizir E.Həsrətovun gənc nəslə qayğısı onun xidmətində əsas yer tutur. Baş gizir nümunəvi xidmətilə orduda gənclərə örnək olmaqla bərabər, peşəsinin incəliklərini onlara həvəslə öyrədən təcrübəli hamidir...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycan Ordusu daim ən yeni silah sistemi ilə təchiz edilir"

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordumuzun ən yeni silah sistemi və vasitələrlə təchiz edilməsinə önəm verdiyini növbəti dəfə nümayiş etdirdi. Bu gün biz torpaqlarımızı işğal altında saxlayan Ermənistandan gələn təhdidlərin qarşısının alınması iqtidarında olduğumuzu nümayiş etdiririk.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan general-mayor Aleksandr Vasyak deyib.

O deyib ki, Ermənistan bütün KİV-lərdə "təcavüzkar qonşu" Azərbaycandan müdafiə olunmaq məcburiyyətində qaldığını bildirir. Eyni zamanda, güclü qırğın vasitələri əldə etməyə çalışır, məsələn, Rusiya istehsalı olan "İskəndər" raket kompleksi. Biz bu cür təhdidlərdən müdafiə vasitələri axtarır və tapırıq. Azərbaycan İsrail kompleksi "Barak"ın analoqu olan ən yeni HHMRƏM sistemi "İldırım"ı əldə edərək silahlanmaya daxil edib. Bizim sistem sutkanın istənilən vaxtı və mürəkkəb hava şəraitində 360 dərəcə sektorda yaxın və orta məsafədə uçuş aparatları, qanadlı raketlər və "səth-səth" sinfinə aid raketlər də daxil olmaqla, geniş spektrə malik hava hədəflərinin aşkarlanması və məhv edilməsi üçün nəzərdə tutulan yerüstü mobil kompleksdir.

Yerüstü buraxıcı qurğu nəqliyyat-buraxıcı konteynerlərdə olan səkkiz raketlə təchiz edilib. İki gün əvvəl poliqonda biz havaya buraxılmış sürətli hədəfi elə ilk raketlə vurmaqla öz kompleksimizin uğurlu tətbiqini nümayiş etdirdik (tutucu-raket hədəfi uğurla aşkar edib və onu məhv edib). Düşmən təyyarələrinin aşkarlanması, raketlərin vurulması, müxtəlif hava hədəfləri ilə mübarizə aparmaq üçün nəzərdə tutulan kompleks, eyni zamanda, taktiki ballistik raketlərin tutulması üzrə tapşırıqları da yerinə yetirir. Sistem raket havada uçarkən məlumatı ona ötürməyi, digər hədəfə yönləndirməyi, həmçinin bölmələrin fəaliyyətinin koordinə edilməsini təmin etməyə imkan verir. Sadə vətəndaşa aydın olsun deyə bu gün əminliklə belə demək olar ki, kompleks düşmənin üstümüzə uçan bütün vasitələrini 200 kilometr məsafədə və 20 kilometr hündürlükdə aşkar, 70 kilometr məsafədə yaxınlaşdığı zaman isə uğurla məhv edəcək. Belə ki, kompleks, eyni zamanda, 6 müxtəlif hədəfin hər birini iki raketlə vurmaq imkanına malikdir.

Bu gün Azərbaycanın Silahlı Qüvvələri lazım olan hər bir silahla təchiz edilib, döyüş hazırlığı ən yüksək səviyyədədir. Aprel döyüşləri bunu bütün dünya ictimaiyyətinə nümayiş etdirdi. Ermənilər isə, tam əksinə, müasir döyüş əməliyyatlarının həyata keçirilməsində bacarıqsızlıq göstəriblər və indi də Rusiyadan dilənçi payı olaraq panaseya axtarır, eyni zamanda, Azərbaycanın işğal olunmuş ərazilərini əldə saxlamaqla "böyük Ermənistan" yaradacaqlarına ümid bəsləyirlər. Aprel döyüşləri təcavüzkarın xeyrinə olmadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan onlara bir daha anlamaq imkanı verir ki, biz artıq gözləmək niyyətində deyilik. Əgər Ermənistan işğal etdiyi torpaqları sülh yolu ilə azad etməsə, biz onları açıq döyüşdə, müharibə yolu ilə azad etməyə hazırıq. Bu gün Azərbaycanın istər müdafiə, istərsə də hücum üçün hər cür imkanı var.

# Müxbirimiz müsabiqənin qalibidir



## Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə yekun vurulub

*Dekabrın 23-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinə yekun vurulub. Sevindirici haldır ki, müsabiqəyə qatılmış "Azərbaycan Ordusu" qəzetinin müxbiri, əməkdar jurnalist Rəşid Hüseynov uğur qazanıb. Həmkarımızın müsabiqəyə təqdim etdiyi yazı ("Tarixi unutmuruq, tarix unudulmur") "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" nominasiyasında üçüncü yerə layiq görülüb.*

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ problemi hər bir azərbaycanlını düşündürən, həmişə narahat edən yetərincə ağrılı bir məsələdir və qələm sahiblərinin tez-tez müraciət etdiyi mövzudur. Bu mövzu şair və publisist kimi tanınmış Rəşid Hüseynovun (Faxralı) da yaradıcılığından qırmızı xətlə keçir. Müharibə illərindən üzü bu yana "Azərbaycan Ordusu" qəzetinin səhifələrində Silahlı Qüvvələrimizin dəyərli oxucuları onun neçə-neçə maraqlı oçerk və zarisovkalarını oxuyub, müəllifin Qarabağ mövzusuna necə həssaslıqla yanaşdığının şahidi olublar.

Məlum aprel döyüşlərindən sonra o dəfələrlə ön xəttə gedərək cəsur Vətən oğulları ilə görüşüb, onların necə tükənməz vətənpərvərlik duyğularıyla düşmən üzərinə atılmasını, hətta yaralansalar belə, hücum edən bölmələrin sırasından çəkilmədiklərini, düşmənə sarsıdıcı zərbələr endirməsini şahidlərin və mətin döyüşçülərin öz dillərindən öyrənmişdi. Rəşid Hüseynov həmin döyüşlərdə şücaət göstərmiş Azərbaycan Silahlı Qüvvələrinin zabit və əsgərlərinin qəhrəmanlığından iki poema ("Lələtəpə", "Bayraqtəpə") yazıb.

Amma Qarabağ mövzusu publisist Rəşid Hüseynovun tükənməyən bir mövzudur və həmkarımızın bu mövzuda qələmə aldığı növbəti oçerki Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmişdi. Aldığımız xəbər, həmkarımızın uğuru bizi də sevindirdi.

Beynəlxalq Mətbuat Mərkəzində keçirilən mərasimdə Fondun icraçı direktoru Vüqar Səfərli, Müşahidə Şurasının üzvləri, habelə ölkənin 30-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbəri, yazıları qiymətləndirmiş ekspertlər və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli media nümayəndələri-



ni salamlayaraq onları 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib. Vüqar Səfərli il ərzində dövlət və cəmiyyət həyatında prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə, jurnalistlərin peşəkarlığının artırılması, sosial vəziyyətinin yaxşılaşdırılması və yaradıcı əməyinin stimullaşdırılması məsələlərinə xüsusi diqqət ayrıldığını bildirib.

İcraçı direktor Fondun Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə noyabrın 8-dən dekabrın 15-dək KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə 69 kütləvi informasiya vasitəsindən 160 yazının təqdim edildiyini, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini bildirib. V.Səfərli Fondun Müşahidə Şurasının 22 dekabr 2016-cı il tarixli iclasında ekspertlərin yekun balları əsasında 114 nəfər jurnalistin qalib elan edildiyini vurğulayıb.

Mükafatlandırılanlar arasında "Azərbaycan Ordusu" qəzetinin müxbiri Rəşid Hüseynovun da olmasını onun yaradıcılığına verilən ədalətli qiymət kimi dəyərləndiririk. İnanırıq ki, bu nailiyyət onu yeni-yeni əsərlərin yazılmasına ruhlandıracaq.

**"Azərbaycan Ordusu"**

# "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq"

*Heydər Əliyev adına Hərbi Liseyin kursantları "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında təşkil olunan "Gələcəyimizi qoruyaq" adlı tədbirdə iştirak ediblər.*

Bu təhsil ocağında da qarşıya qoyulan əsas məqsəd gənclərimizi Vətənimizin müdafiəsinə hazırlamaq, onlara hərbi bilik və bacarıqları mənimsətməkdir. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə gələcəyin zabitləri olaraq kursantlara liseyə daxil olduqları ilk gündən Vətənə məhəbbət hissi aşılanır. Onların təkcə intellekt səviyyəsi deyil, həm də fiziki hazırlıqları diqqət mərkəzində saxlanılır. Burada müasir avadanlıqlarla təchiz olunmuş idman zalı, futbol meydançası, müxtəlif idman qurğuları istifadəyə verilib. Nəticədə hərbi liseyin kursantları müxtəlif yarış və müsabiqələrdə fəal iştirak edərək nailiyyətlər qazanırlar. İctimai həyatda, mədəni-kütləvi tədbirlərdə fəallıq göstərən kursantlar öz həmyaşıdlarına nümunə olmağa çalışırlar. Onların Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq, Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri ilə birgə hazırladıqları növbəti tədbir də fikrimizə əyani misaldır.

"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında təşkil olunan növbəti tədbirdə sözügedən Mərkəzin direktoru Namiq Novruzov, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov və digər çıxış edənlər bildiriblər ki, zərərli vərdişlərə siqaretçəkmə, spirtli içkilərə alüdəçilik, kompüterdən və mobil telefondan ifrat dərəcədə istifadə halları aiddir. Qeyd edilib ki, gələcəyimiz olan uşaq, yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılmasında, Vətənə layiqli övladlar kimi hazırlanmasında hər kəsin fəaliyyəti zəruridir.



Muxtar Respublika Daxili İşlər Nazirliyinin əməkdaşı, polis kapitanı Fariz Nəsirov zərərli vərdişlərin xoşagəlməz hallara gətirib çıxaracağını tədbir iştirakçılarının diqqətinə çatdırdı. Zərərli vərdişlərin yolverilməzliyi barədə ətraflı danışan polis əməkdaşı qeyd etdi ki, bununla bağlı Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrində müxtəlif məsuliyyəti cəza tədbirləri də nəzərdə tutulub. "Əlbəttə ki, yetkinlik yaşına çatmayanlarla yanaşı, onların valideynləri də məsuliyyətə cəlb oluna bilər. Buna görə də valideynlərin üzərinə böyük məsuliyyət düşür. Hətta yetkinlik yaşına çatmayanların mağazalardan tütün məmulatları və spirtli içkilər alması qəti qadağandır. Eyni zamanda, onlara adı çəkilən zərərli məhsulların satılması da məsuliyyətə səbəb olur."

Tədbirdə zərərli vərdişlərin insan orqanizminə mənfi təsirindən bəhs edən animasiya filmi nümayiş olunub.

Heydər Əliyev Uşaq, Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri ilə birlikdə hərbi liseyin kursantları "Siqaretin zərər verdiyi orqanlar", "İçki - ölümə aparan yol", "İnternetin zərərləri" adlı səhnəciklər canlandırıblar. Səhnəciklərdə internetin maksimum şəkildə insan həyatına, məişətinə daxil olduğu müasir dövrdə yeniyetmə və gənclərin həyatını mobil telefonsuz və kompütersiz təsəvvür etməyin mümkünsüzlüyü göstərilib. Lakin onlardan ifrat dərəcədə istifadə etmənin bir çox zərərli nəticələri də səhnəciklərdə canlandırılıb.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından Elvin Əhmədov, Məhəmməd Hüseynli, Elnur Məmmədov, Orxan Məmmədov, Əhməd Mahmudzadə, Fərid Müslümov, Ülvi Bayramov, Rahib Əliyev, Şamxal Həsənov, Aydın Zamanov, Ruslan Mahmudov, Aslan Aslanov və Rahib Quliyev xüsusi fəallıq göstəriblər. Həmçinin Heydər Əliyev Uşaq, Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərindən İlkanə Bayramova, Türkanə Bayramova və Lətifə Cəfərova da fərqləniblər.

Fəal kursantlar və dərnək üzvləri mükafatlandırılıblar.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Səngər dostluğu daha möhkəm olur

*İnsan yaşadığı zaman kəsiyində çətinliklərlə üzləşir, sınaqlardan çıxır. Həyatda hər bir insanın gələcək taleyini təhsili, dünyagörüşü müəyyən edir, ömür yolunu istiqamətləndirir. Bu yolun bütün anları ona doğma olur.*



Lerik rayonunun Hramo kəndindən olan əsgər Səfail Heydərov əsgərlik həyatını yaşayanlardandır. Əsgərin yaxın zamanlarda tərxis olunacağını biləndə həmsöhbət olmağı, ordu həyatı ilə bağlı təəssüratlarını qələmə almağı qərara aldım. Hərbi xidmətlə bağlı təəssüratlarını bizimlə bölüşən əsgərə görə, Vətəni qorumaq, ana yurdun keşiyində dayanmaq şərəflidir. "Xidmətimin ilk günündən döyüş hazırlığının artırılmasına diqqət yetirdim, vəzifə borcumun öhdəsindən bacarıqla gəldim, hərbi biliklərə mükəmməl yiyələndim, bir sözlə, tabe olduğum zabit və gizir heyətinin hörmətini qazandım. İlk gündən mehriban, səmimi bir kollektivdə olduğumu hiss etdim. Mənə hərbi xidmətin sirlərinin öyrədilməsində yardımçı olan komandirlərimə və əsgər dostlarıma minnətdarlığımı bildirirəm."

Səfail Heydərov səngərdə - düşmənlə üz-üzə mövqedə Mehman İsayev kimi bir dost qazandığının sevincini bizimlə bölüşdü: "Sevinirəm ki, Mehman kimi dostum var. Onunla bu dostluğu gələcəkdə də kəsməyəcəm. Səngər dostluğu daha güclü, daha möhkəm olur. Mənim də ən böyük arzum işğalda olan torpaqlarımızın tezliklə azad olunmasıdır, - əsgər Heydərov sözünə davam etdi. - Hər zaman torpaqlarımızın azad edilməsi prosesində yaxından iştirak etməyə hazıram.

Əsgər Səfail Heydərov ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir. "Bizə təhkim olunan silahlardan, texnikadan mükəmməl şəkildə istifadə etməyimizə görə düşmənin hücumlarının qarşısını layiqli şəkildə almağa qadirik. Postda düşmənlə üzüzə dayanan əsgər həm texnikanı yüksək səviyyədə bilməli, həm də ayıqsayıq olmalıdır. Düşmənə qalib gəlmək üçün bu vacib amilləri öyrənirik."

Müsahibim ordu həyatında iz buraxan xoş xatirələrini də qeyd etdi. Hərbi hissədə Silahlı Qüvvələr Günü, Novruz bayramı, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və başqa əlamətdar tədbirləri heç zaman yaddan çıxarmayacağını bildirdi. Belə tədbirlərin düşmənlə üz-üzə səngərdə xidmət edən hərbçilərə ruh yuksəkliyinin aşılanmasında böyük rol oynadığını və hərbi xidmətin xoş xatirələr kimi yaddaşında qalacağını qeyd etdi.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusu Suriyada İŞİD terrorçularına sarsıdıcı zərbə endirib



Türkiyə Silahlı Qüvvələrinin Suriyanın Əl-Bab bölgəsində həyata keçirdiyi antiterror əməliyyatları nəticəsində İŞİD terror təşkilatına məxsus 140 hədəf bombalanıb. Bombardman nəticəsində 12 terrorçu məhv edilib.

Türkiyə KİV-lərinin məlumatına görə, Əl-Bab və Bzagah bölgələrindəki sonuncu əməliyyatlarda terrorçuların 6 müdafiə barrikadası və silah anbarı dağıdılıb. Bundan başqa, 53 bomba ələ keçirilib, 2161 yerdə quraşdırılmış partlayıcı maddə, o cümlədən 42 mina zərərsizləşdirilib.

### Dekabrın 26-sı Rusiyada matəm elan olunub



Rusiya Prezidenti Vladimir Putin Müdafiə Nazirliyinə məxsus "Tu-154" təyyarəsinin Soçidə qəzaya uğraması ilə əlaqədar dekabrın 26-da ölkədə matəm elan edilib.

Prezident V.Putin Avrasiya İqtisadi Şurasının iclasında və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sessiyasında iştirak etmək üçün Sankt-Peterburqa gəlib. "Rossiya 24" kanalına müsahibəsində V.Putin qəzanın ətraflı araşdırılacağını və hadisə nəticəsində ölənlərin ailələrinə yardım ediləcəyini bildirib.

### Bomba tapılması təxliyyəyə səbəb olub



Almaniyanın Bavariya əyalətinin Auqsburq şəhərində təxminən 54 min insan təxliyyə edilib.

Buna səbəb şəhərdə 1939-1945-ci illərdə baş vermiş İkinci Dünya müharibəsi zamanı Britaniya ordusuna məxsus bombanın tapılmasıdır. Təxliyyə işlərinə 900-dək polis işçisi cəlb edilib.

Dekabrın 20-də aşkarlanan və 1,8 ton çəkiyə malik bombanın zərərsizləşdirilməsinə bu gün günorta saatlarında başlanılacaq. Hakimiyyət orqanları bombanın tapıldığı ərazidə 1500 m diametrlik sahədə mühafizə zonası yaradıb.

### Şimali Karolina ştatında atışma nəticəsində dörd nəfər həlak olub



ABŞ-ın Şimali Karolina ştatının Uilson dairəsindəki evlərdən birində meydana gələn atışma zamanı dörd nəfər həlak olub. Bu barədə CBS North Carolina telekanalı məlumat yayıb.

Xəbəri yerli polis idarəsindən təsdiqləsələr də, atışmanın səbəbləri və digər təfərrüatlar barədə məlumat verməyiblər.

### ABŞ və Yaponiya arasında Okinavadakı hərbi baza ilə əlaqədar razılıq əldə olunub



ABŞ və Yaponiyanın müdafiə nazirlikləri arasında Okinava prefekturasındakı hərbi baza ilə əlaqədar razılıq əldə olunub. Kyodo agentliyinin yaydığı məlumata əsasən, bu barədə Pentaqonun rəhbəri Eştonn Karter məlumat verib. E.Karterin bununla bağlı bəyanatında deyilir: "Yaponiyanın sabiq müdafiə naziri Qen Nakatani ilə iyunda əldə etdiyimiz razılaşmaya uyğun olaraq, hər iki ölkənin nümayəndələri Yaponiyada ABŞ silahlı qüvvələrinin mülki və hərbi xidmətçilərinin sayı barədə ümumi razılığa gələ biliblər. Bu, məni sevindirir".

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr



Su-25 "Qraç" zirehli hücum təyyarəsi



Su-25 təyyarəsi Rusiya ordusuna məxsus olan zirehli hücum təyyarəsidir, hərbi əməliyyatlar zamanı günün bütün vaxtlarında quru qoşunlarına dayaq durmaq və düşmənin hədəflərini məhv etmək üçün nəzərdə tutulub.

"Qraç" təyyarəsi ilk dəfə 1975-ci ilin fevralında havaya qalxıb. 1981-ci ildən istismardadır və bir çox hərbi münaqişələrdə ondan istifadə edilib. Təyyarə 70-ci illərin ortalarında Suxov adına konstruktor bürosunda hazırlanıb. 1975-ci ilin fevralında onun oxşarı olan T-8 təyyarəsi havaya qalxıb. 1980-ci ildə Su-25 təyinatı ilə Rusiyanın Hərbi Hava Qüvvələrinin silahlanmasına daxil edilib. Maşının hər iki tərəfində yerləşdirilmiş R-95 və R-195 mühərrikləri davamlı olduğuna görə onu asanlıqla sıradan çıxarmaq olmaz. Su-25-də yanacaq kimi aviasiya kerosinindən istifadə edilir. Yanacaq çəni 3660 litr tutumundadır. Bundan başqa, təyyarəyə hər biri 840 litr olmaqla 2 asılma yanacaq çəni də yerləşdirmək olar. Təyyarə etibarlı mühafizə sisteminə malikdir. Pilotun kabinəsi aviasiya titanlı qalın zirehlə işlənilib. Ekstremal şəraitdə pilotun xilas edilməsi üçün K-36L katapultlu oturacaq köməyə çatır.

Su-25 "Qraç" təyyarəsi güclü silahlanmaya malikdir. Müxtəlif kalibrli aviatoplar, aviabombalar və müxtəlif raketlərlə təchiz edilib. Burada silah və yüklər üçün 10 ədəd asılma nöqtəsi vardır. 2 ədəd 30 mm çaplı QŞ-30-2 aviasiya top qurğusuna malikdir. Aviasiya topu düşmənin canlı qüvvə və texnikasını, həmçinin yaxın və orta məsafələrdə yerləşdirilmiş hava hədəflərini məhv etmək üçün təyin edilib. Onun lüləsinin uzunluğu 1,5 metr, sursatsız çəkisi 105 kiloqramdır. Tam döyüş ehtiyatı 250 mərmidən ibarətdir. Mərminin ilkin sürəti saniyədə 900 metrə qədərdir. Topun atəş tezliyi dəqiqədə 3000 atışdır. Top çoxelementli döyüş sursatları ilə atəş aça bilər. Təyyarənin asılqanında "Qast" sxemi üzrə hazırlanmış əlavə artilleriya silahlanması da quraşdırmaq olar və top konteynerinin döyüş komplekti 260 mərmi təşkil edir. Göyərtəsi güclü müdafiə kompleksi ilə təchiz edilib ki, bu da onu raket hücumundan qoruyur. Su-25 hücum təyyarəsinin kommersiya-eksport, tank əleyhinə, ikiyerli təlim-döyüş, bir yerli hücum və s. modelləri də mövcuddur. Onlardan bir sıra ölkələrdə hərbi münaqişələrdə istifadə edilib.

Su-25 hücum təyyarəsinin təchiz olunmuş çəkisi 11600 kiloqram, maksimal uçuş çəkisi 17600 kiloqram, sürəti saatda 950 kilometrdir. Lazer stansiyası və peyk sistemi ilə də təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

## “İldırım”dan vahiməyə düşən Ermənistan, görəsən, indi nə etmək fikrindədir?

Azərbaycan Silahlı Qüvvələrinin real döyüş atışları icra etməklə, "İldırım" zenit-raket komplekslərini nümayiş etdirməsi Ermənistanda birmənalı şəkildə şok effekti yaradıb. Adətən istənilən məlumata şərh verən erməni ekspert-mütəxəssislər bu dəfə iflic vəziyyətinə düşüblər. Artıq ikinci gündür ki, onların susqunluğu davam edir.

Bu sözləri ehtiyatda olan polkovnik Şair Ramaldanov AZƏRTAC-a açıqlamasında deyib.

Ş.Ramaldanov bildirib ki, düşmən tərəfinin əldə etdiyi "İsgəndər" raketlərinə Azərbaycanın "İldırım"la cavab verməsi özünü çox gözlətmədi. Maraqlıdır, qısa müddət "İsgəndər"lə öyünən Ermənistan rəhbərliyi indi öz xalqının başını yenidən hansı "oyuncaqla" aldatmağa başlayacaq?

"Ali Baş Komandan İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində güclü ordu quruculuğu, dövlətimizin iqtisadi inkişafı, demoqrafik üstünlük və digər amillər Ermənistanın Azərbaycan ilə ayaqlaşa bilməməsinə əyani sübutdur. Azərbaycanın hava məkanının eşelonlaşdırılmış mühafizəsi, ordumuzun silahlanmasına bundan sonra da qəbul ediləcək silahlar Ermənistan üçün sürpriz olacaq və düşmənin vahimə içində qalması şübhəsizdir. Düşmənin üzərinə yağdıracağımız raketləri onlar nə ilə zərərsizləşdirəcəklər? Bu, böyük sual doğurur", - deyə ehtiyatda olan polkovnik qeyd edib.

## “Kitabxanamızın fondu daha da zənginləşib”

*Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Yazıçılar Birliyinin bir qrup üzvü ilə görüşüb. Görüşdə qeyd edilib ki, belə tədbirlərin mütəmadi keçirilməsi zəruridir. Ziyalılar, şair və yazıçılar, ictimai xadimlər Azərbaycan əsgərinin yanında olmaqla bərabər, gənclərimizin, gələcək nəslin vətənpərvərlik ruhunda, döyüş əzmində tərbiyə olunmasında müstəsna rol oynamalıdır.*



Bir sıra qarşılıqlı təkliflərlə yanaşı, Müdafiə Nazirliyinin həm özündə, həm də hərbi hissələrində "Yazıçı" kitabxanası yaratmaq da qərara alınıb. Bununla əlaqədar olaraq Azərbaycan Yazıçılar Birliyi yazıçı və şairlərə öz avtoqrafları ilə əsgərlərə kitab hədiyyə etməyi tövsiyə edib.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, bu günlərdə 60 yaşı ictimaiyyət tərəfindən böyük təntənə ilə qeyd edilən tanınmış yazıçı-publisist Salatın Əhmədova həm yenicə nəşr olunmuş seçilmiş əsərlərini, həm də ötən illərdə nəşr edilmiş kitablarını C.Naxçıvanski adına Hərbi Liseyin kitabxanasına hədiyyə edib.

Hərbi Liseyin kitabxana rəisi Zenfira İsmayılova bildirdi ki, yazıçı-publisist S.Əhmədova xeyirxah bir addım ataraq kitabxanaya 50-dən çox kitab hədiyyə edib. "Kitabxanamızın fondu daha da zənginləşib. Kursantlarımız bədii əsərləri oxumağa böyük maraq göstərirlər. Onlar asudə vaxtlarında kitabxanaya gələrək yeni nəşr olunmuş əsərləri oxuyurlar. İnanıram ki, kursantlar Salatın Əhmədovanın kitablarını da böyük həvəslə, sevə-sevə oxuyacaqlar. Qarabağ müharibəsindən bəhs edən əsərlər onların vətənpərvərlik hisslərini daha da artıracaqdır. Bizə öz əsərlərini hədiyyə etdiyinə görə Salatın xanıma minnətdarlığımı bildirir, onun bu addımını alqışlayıram. İnanıram ki, başqa yazıçılarımız da yaxın günlərdə Salatın Əhmədova kimi xeyirxah addım atacaqlar."

**Vahid MƏHƏRRƏMOV**

## Yeni kitablar

## “Torpaqdan günəşə...”

Nəşr olunan hər yeni kitab ədəbiyyatsevərlərə bir hədiyyədir. Kitab dəyərli və mənalı olanda, əsərlərdən "bir inci saflığı" sızanda isə bu sevinc ikiqat artır. Ədəbiyyatı böyük bir ağaca bənzətsək, kitablar onun budaqları, vərəqlər isə onun yarpaqlarıdır. Hər yeni kitab ədəbiyyat "ağacını" bir buğda boyu zirvəyə qaldırır. İnanıram ki, şairə Mayisə Əsədullaqızının "Torpaqdan günəşə..." kitabı da poeziya həvəskarlarını sevindirəcək, şeirlər oxucuların qəlbinə asanlıqla yol tapacaq. Bu, şairənin oxucularla üçüncü görüşüdür. Mayisə xanımın əvvəlki illərdə "Zəfəran ətirli Bakı gecələri", "Ürəyimin yolları var" kitabları işıq üzü görüb.

Kitaba Əməkdar mədəniyyət işçisi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Adil Abdullayev ön söz yazıb. O, şairənin yaradıcılıq istiqamətlərini çox düzgün və dəqiq müəyyənləşdirərək yazır: "...Onun şeirləri mayasını xalqdan alır, milli dəyərlərdən qaynaqlanır. Bu gün bizi düşündürən əxlaqi problemlər, mühüm tarixi hadisələr, qəhrəmanlıq və igidlik motivləri, məhəbbət və sədaqət notları, xalq qarşısında məsuliyyət, yaşadığımız bugünkü həyat və müasir dövrümüz haqqında fəlsəfi fikir və düşüncələr Mayisə Əsədullaqızının yaradıcılığının əsas istiqamətləridir."

Kitabda diqqətimizi ən çox çəkən qəhrəmanlığı, vətənpərliyi tərənnüm edən şeirlərdir. Kitabın ilk səhifələrində yer alan şeirləri oxuyarkən Mayisə xanımın necə bir vətənpərvər şairə olduğu hiss edilir. "Azərbaycan uğrunda", "Azərbaycanım - Qarabağım", "Səngərdə dayanan əsgər", "Şərəfli sərhədçilər". "Şəhid ölümsüzlüyü" və başqa şeirlərində vətənpərvərlik duyğuları vəsf olunur. "Yurdumun" şeirindəki misralar oxucunu bir anlıq uzaq və yaxın tariximizə aparır.

Mehdi, Həzi yetiribdi
bu torpaq,
Qəhrəmandır
hər döyüşdə üzüağ.
Öndərlərin yolu bizə
gur çıraq,
Gəlin bu yollarda
birlikdə olaq!
Yüksəlsin sədası
hər gün ordumun,
Mübarizi, Ramili var
yurdumun!

Kitabda yer almış Xocalı faciəsindən bəhs edən şeirlər də təsirlidir. Mayisə xanımın bu ağrılı mövzuda yazdıqlarını oxuduqca bir anlıq o qanlı hadisələr gözlərimiz qarşısında canlanır. Qulaqlarımıza Xocalıda öldürülmüş günahsız insanların hayqırtısı gəlir. Bu qanlı faciəni törətmiş erməni işğalçılarına kinimiz, nifrətimiz daha da artır. Mayisə xanım oxucuları qısasa, intiqama səsləyir. Qələmə aldığı bu misralarda şairə həm də ürəyindən keçən arzularını ifadə edir:

Qoy ucalsın göylərə
haqqın səsi,
Gül açsın Vətənimin
dağı, dərəsi,
Düşməni qorxutsun
igid nərəsi,
Amandı yatmayaq,
dur ayağa qardaşım!
Oyan, ay qohumum,
ay vətəndaşım!

Göründüyü kimi, hər sətirdən, hər misradan sanki ürəyimizə vətənpərvərlik hissi yol tapır. İnanırıq ki, Mayisə xanımın "Torpaqdan günəşə..." kitabı da oxucular tərəfindən maraqla qarşılanacaq.

**M.VAHİD**

# İdman

## Futzal üzrə Türkmənistan millisi Bakıda növbəti yoxlama oyununu keçirib



Futzal üzrə Türkmənistan millisi Bakıda təlim-məşq toplanışı çərçivəsində dördüncü yoxlama oyununu keçirib.

Bakının "Xəmsə" komandası ilə qarşılaşan Türkmənistan millisi 8:6 hesabı ilə qalib gəlib.

Xatırladaq ki, Türkmənistan millisi daha əvvəl "Araz" komandasına 3:4 hesabı ilə məğlub olub, "Neftçi" ilə heç-heçə (5:5) edib, "Yasamal"a (8:3) isə qalib gəlib.

## Azərbaycan çempionatında ikinci dövrəyə yekun vurulub



Dekabrın 26-da kişi voleybolçular arasında Azərbaycan çempionatının II dövrəsinə yekun vurulub.

X turda gözlənilməz nəticə qeydə alınıb. Belə ki, ilk doqquz turda rəqiblərinə cəmi iki setdə məğlub olan "Neftçi" bu dəfə məğlubiyyətə üzülüb. Bu turadək çempionatda yeganə məğlub olmayan klub olan "ağ-qaralar" "Lokomotiv"lə gərgin keçən oyunda tay-brekdə uduzublar - 2:3. Qeyd edək ki, birinci dövrədə də bu komandaların qarşılaşması beşinci hissəyə qədər davam etmiş və dueldən "Neftçi" voleybolçuları qalib ayrılmışdılar.

Turun "Naxçıvan"-MOİK və "Sumqayıt"-"Nəqliyyatçı" matçları qonaq komandaların 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. On turdan sonra aktivində 28 xal olan "Neftçi" liderliyini davam etdirir. Paytaxtın digər təmsilçisi "Lokomotiv" 27 xalla turnir cədvəlində liderin ən yaxın izləyicisidir. İlk üçlüyü 16 xalla MOİK klubu tamamlayır.

## İdman dırmanması üzrə ölkə çempionatı keçiriləcək



Gələn il yanvarın 14-15-də idman dırmanmasının sürət və çətinlik növləri üzrə ölkə çempionatı keçiriləcək.

Çempionatın nəticələri 2016 və 2017-ci illərin hər ikisi üçün nəzərə alınacaq. Yarışda 19 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. Çempionatın keçirilməsində əsas məqsəd Azərbaycanda dırmanma idman növünü geniş yaymaq, gəncləri və yeniyetmələri bu idman növünə cəlb etməkdir. Yarışlar FAİREX-ə məxsus "CLIMBAKU" İdman Dırmanması Kompleksində keçiriləcək.

## “Qəbələ” futbol klubu Antalya toplanışında üç yoxlama oyunu keçirəcək



"Qəbələ" futbol klubunun qış fasiləsində Türkiyədə keçirəcəyi yoxlama oyunlarındakı rəqibləri dəqiqləşib.

"Qəbələ" Antalyadakı təlim-məşq toplanışında üç sınaq matçı keçirəcək. Komandamız ilk oyununu yanvarın 13-də Albaniyanın "Partizani" klubuna qarşı keçirəcək. Roman Qriqorçukun rəhbərlik etdiyi komanda yanvarın 18-də Ruminiyanın "Qaz Metan" klubu ilə qarşılaşacaq. Son oyunda isə "Qəbələ"nin rəqibi Makedoniyanın "Şkendiya" komandası olacaq. Bu matçın yanvarın 24-də oynanılacağı planlaşdırılır.

"Qəbələ"nin Antalyadakı toplanışı yanvarın 9-dan 25-dək davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Dadaşov Sahib Hacıbaba oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 602
Nüsxə 4650